Bizə yazırlar

**Nəğməkar şair, jurnalist Abil İslamla illər öncə Azərbaycan Yazıçılar Birliyində tanış olduq. Bəstəboylu, saçlarına yenicə ağ dənlər düşən bu nurlu insanın 200-dən artıq şeirinə mahnı bəstələndiyini öyrəndim.**

# Nəğməkar şairin könül rübabı

Yaradıcı insanların qəlbində Tanrıdan gələn bir ilham, üzündə ilahi bir nur olur. Onlar içlərindəki işıqla ömür adlı tuneldə rahat irəliləyirlər. Səxavətlə paylaşılan bu işıqdan başqaları da bəhrələnirlər. Abil İslamın ürəyi nəğmə işığına bələnib desəm, yanılmaram.

Abil İslam 1958-ci ildə Göyçayda dünyaya göz açıb. O torpağın suyunu içib, havasını udub. Orta məktəbi bitirdikdən sonra arzularının qanadında Bakıya üz tutub. Ali təhsil alıb. Mətbuatda fəaliyyətinə gənclik illərində Göyçayın "Yeni həyat" qəzetində başlayıb və mərhum jurnalist Oqtay Cəfərovun rəhbərliyi altında çalışıb. Sonra yenə də Oqtay müəllimin redaktorluğu ilə çıxan "İnşaatçı" qəzetində işləyib.

O, Bakıda ustad yazarlarımızla tanış olub, şeirləri musiqi ritmlərinə yatdığı üçün bəstəkarların diqqətini çəkib. Mahnılarını İslam Rzayev, Cavan Zeynallı, Aybəniz Haşımova, Zöhrə Abdullayeva, Əli Mirəliyev, Zümrüd Məmmədova, Nüşabə Ələsgərli həvəslə oxuyublar. Əksər nəğmələri dövlət radiosunun "Qızıl Fondu"nda saxlanılır. İkinci Qarabağ müharibəsinə həsr olunmuş "Adın mübarək, şəhid!" şeirinə Arif Səlimov musiqi bəstələyib və müğənni Vüqar Muradov ustalıqla ifa edib.

Bu gün onun var-dövləti yazdığı şeirləri və gözəl dostlarıdır. Bu barədə səmimi misraları da var:

*Vəzifə, var-dövlət gəldi-gedərdi,*
*Ərkim sizə çatır hər zaman, dostlar!*

Abil İslam Bakının Nizami rayonu "Müharibə və Əmək veteranları" təşkilatının sədr müavini, İctimai Xəbər Agentliyinin direktor müavini, eləcə də Azərbaycan Türk Xalqları İctimai Birliyinin sədr müavini kimi fəaliyyət göstərir.



Bir şair kimi həyatın gözəlliklərindən zövq alır, eyni zamanda neqativ hallara, haqsızlığa dözə bilmir, bir vətəndaş həssaslığı ilə bunu nəzmə çəkir. Vətənpərvər oğullarımızla qürur duyur, şəhidlərin ruhuna ehtiramını poeziya dili ilə ifadə edir, qazilərlə keçirilən tədbirlərə həvəslə qatılır. Elə bu yaxınlarda Respublika Klinik Xəstəxanasında təşkil olunmuş xeyriyyə konsertində fəal iştirakına görə fəxri diploma layiq görülüb.

*Biz azad etdikcə şəhər, kəndləri,*
*Yerlə yeksan oldu düşmən bəndləri.*
*"Hay" ın boğazında Türk kəməndləri...*
*Ali Baş Komandan vur dedi, vurduq!*

Bu kimi alovlu misraları ilə Zəfər salnaməmizi vəsf edən Abil İslamın şeirləri, mahnı mətnləri el məclislərində şövqlə səsləndirilir və gənclərimizə vətənpərvərlik hissləri aşılayır.

**Südabə SƏRVİ,**
**yazıçı-publisist**